# GDU-nun professor-müəllim heyəti Şəmkirdə məktəblilərlə görüş keçirib



**Gəncə Dövlət Universitetinin (GDU) professor-müəllim heyəti Şəmkir rayon təhsil sektorunda 40-a yaxın orta ümumtəhsil məktəbi şagirdlərinin iştirakı ilə görüş keçirib.**

Görüşdə universitetin işçi qrupunun üzvləri çıxış edərək GDU-da tədris olunan ixtisaslar, mövcud fakültələr, ali məktəbin beynəlxalq əlaqələri haqqında ətraflı məlumat vermişlər. Sonra universitetin tədris binaları, laboratoriyaları, kitabxanaları, idman zalları və tələbə yataqxanası haqqında olan məlumatları əks etdirən videoçarx nümayiş etdirilmişdir.

Görüşdə vaxtilə Gəncə Dövlət Universitetinin məzunları olmuş və hazırda Şəmkir rayon orta ümumtəhsil məktəblərində çalışan müəllimlər çıxış edərək GDU-nun məzunları olduqları üçün fəxr etdiklərini bildirmişlər.

Sonda şagirdlərə universitetin fəaliyyətini əks etdirən bukletlər paylanmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 9 yanvar (№ 3).- S.12.